

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 109 (23.751)

*18 iyun 2021-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

İyunun 16-da "Avro-2020"nin A qrupunda yer alan Türkiyə milli komandası iyunun 16-da Bakı Olimpiya Stadionunda Uels yığması ilə qarşılaşıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan və xanımı Əminə Ərdoğan oyuna baxıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Avropa Futbol Federasiyaları Assosiasiyasının (UEFA) prezidenti Aleksander Çeferin ilə görüşüblər.

Oyun başa çatandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Rəcəb Təyyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı yola salıblar.



## Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib






İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin 21-ci buraxılışı münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə mərasimə hazırlıq barədə raport vermişdir.

Ali Məclisin Sədri kursantları salamlamışdır.

Kursantlar orkestrin müşayiətilə Azərbaycanın Dövlət Himnini ifa etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin 21-ci buraxılış mərasiminin Vətən müharibəsində qazandığımız böyük tarixi Qələbə ilə qeyd olunduğunu, Qələbənin qazanılmasında və torpaqlarımızın işğaldan azad edilməsində hərbi liseyin məzunlarının da qəhrəmanlıq göstərərək şəhid olduqlarını bildirmiş, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Ali Məclisin Sədri demişdir: İkinci Qarabağ müharibəsi bir daha göstərdi ki, o ordu güclüdür ki, onun vətənpərvər və peşəkar şəxsi heyəti vardır. Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsindəki tarixi qələbəsi də ölkəmizin iqtisadi qüdrəti və ordumuzun güclü maddi-texniki təminatı ilə yanaşı, həm də dövlət-xalq-ordu birliyi, əsgər və zabitlərimizin yüksək döyüş qabiliyyəti və vətənpərvərliyi nəticəsində qazanılmışdır. Təbii ki, bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin bəhrələridir. Ulu öndərimiz ötən əsrin 70-ci illərində Azərbaycanda hərbi təhsil sisteminin və milli hərbçi kadr hazırlığı işinin əsasını qoymuş, müstəqillik qazandıqdan sonra isə bu məsələnin vacibliyini önə çəkərək demişdir: ***"Əgər Azərbaycanın qüdrətli ordusunu yaratmaq istəyiriksə, bu ordu yalnız və yalnız təcrübəli, bilikli, səriştəli, hərbi təhsilə malik olan zabitlər, hərbi qulluqçular tərəfindən yarana bilər".***

Ali Məclisin Sədri demişdir: Dahi şəxsiyyətin müəyyənləşdirdiyi yolun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi qüdrətli Azərbaycan Ordusunu formalaşdırmışdır. Müstəqillik illərində ümummilli liderin qəbul etdiyi mühüm tarixi qərarlardan biri də Naxçıvanda hərbi məktəbin yaradılması olmuşdur. Əgər Sovetlər Birliyi dövründə yaradılan hərbi məktəb ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdırsa, 1998-ci ildə Naxçıvanda hərbi məktəbin yaradılması isə müstəqil ordu quruculuğu sahəsində atılan mühüm addım idi. Ötən dövrdə hərbi məktəb ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı ilə böyük inkişaf yolu keçmişdir. Fəxr edirik ki, Heydər Əliyev adına Hərbi Lisey müstəqil dövlətimizin ordu quruculuğu işinə öz layiqli töhfəsini verir. 56 kursantla fəaliyyətə başlayan liseyin 3 mindən artıq məzunu olub. Hazırda onlardan 2 minə yaxını Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edir.



Ali Məclisin Sədri kursantlara müraciətlə demişdir: Zabit peşəsi çətin və şərəfli peşədir. Ulu öndərimiz öyrədirdi ki, ***hərbi peşə insandan həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, Vətənə, ölkəyə, doğma torpağa əsl sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq və mətinlik tələb edir.*** Göründüyü kimi, üzərinizə mühüm vəzifələr düşür. İlk növbədə, vətənpərvər olmalı, hərbi nizamnamənin tələblərini öyrənməli, silah və hərbi texnikadan istifadə vərdişlərinə yiyələnməlisiniz. Bu peşəni seçən hər bir gənc həm də Azərbaycan xalqı və dövləti qarşısında məsuliyyətini dərk etməli, tarixinə və milli-mənəvi dəyərlərinə sahib çıxmalı, ümummilli lider Heydər Əliyev siyasi xəttinə sədaqət ruhunda yetişməlidir. Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə və təminata malikdir. Gələcəkdə müasir hərbi hissələrdə xidmət edəcək, ailələriniz hərtərəfli sosial-məişət şəraiti ilə təmin olunacaqlar. Ona görə də hərtərəfli ali hərbi təhsil almaq, peşəkar zabit kimi yetişmək və göstərilən etimadı doğrultmaq qarşınızda duran əsas vəzifələrdir.

Ali Məclisin Sədri bu yolda kursantlara uğurlar arzulamış, hərbi liseyin 21-ci buraxılışı münasibətilə bütün kursant, zabit və müəllim heyətini, tədbir iştirakçılarını təbrik etmişdir.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, general-mayor Məhəmməd Həsənov buraxılış mərasimində iştirakına görə Ali Məclisin Sədrinə liseyin kollektivi adından minnətdarlıq edərək demişdir: Bu gün ulu öndərimizin müqəddəs adını böyük qürur və ləyaqətlə daşıyan hərbi liseydə ənənəvi buraxılış mərasimidir. Bu dərs ilində tədrisin və təlim-tərbiyənin yüksək keyfiyyətini təmin etmək məqsədilə kursantların fiziki, mənəvi-psixoloji cəhətdən tam hazır olmaları üçün müəllim-zabit heyəti tərəfindən qabaqcıl metodlar tətbiq olunmuşdur. Kursantlar il ərzində şəhər və muxtar respublika miqyaslı fənn olimpiadalarında, idman yarışlarında, bədii özfəaliyyət baxış - müsabiqələrində müntəzəm iştirak edərək layiqli yerlər tutmuşlar. Ötən buraxılış mərasimlərinin birində Ali Məclisin Sədri demişdir ki, ***bu torpaq böyük şücaətlər göstərən generallar, hərbi xadimlər yetirmişdir. Onların keçdiyi yol hər bir gənc üçün vətənpərvərlik nümunəsidir. İnanırıq ki, bu gün Heydər Əliyev adına Hərbi Liseyin müdavimləri olan kursantlar şərəfli zabit adını doğruldacaq, torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanacaqlar.*** Bu fikirləri özləri üçün əsas tapşırıq-vəzifə kimi qəbul edən məzunlarımız 2020-ci il 27 sentyabrda başlanan və 44 gün davam edən Vətən müharibəsində öz qanları və canları ilə tarix yazmış, orden və medallarla təltif olunmuşlar.

Heydər Əliyev adına Hərbi Liseyin məzunu Tahir Məhərrəmov göstərilən diqqət və qayğıya görə bütün kursantlar adından minnətdarlıq edərək demişdir: "Bu gün biz kursantların

*Ardı 2-ci səhifədə*

həyatında çox əlamətdar gündür. Çünki biz Heydər Əliyevin adını daşıyan hərbi liseydən məzun oluruq. Qarşıdakı təhsil illərində də yüksək bilik və hərbi intizamımızla öndə gedəcəyik. Gələcəkdə qalib Azərbaycanımızın hansı guşəsində olmasından asılı olmayaraq, müzəffər ordumuzda layiqincə xidmət edəcək, Ali Baş Komandanın hər bir əmrinə hazır olacağıq".

Sonra Ali Məclisin Sədri liseyin əlaçı kursantlarına attestatları təqdim etmiş, zabit, müəllim və kursantları mükafatlandırmışdır.

Kursant Elşad Abdullayev təhsil ocağının rəmzi kötüyünə xatirə birkasını vurmuşdur.

Orkestrin müşayiətilə "Hərbi lisey marşı" ifa edilmiş, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçmişdir.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirmiş,







liseydə yeni yaradılmış STEAM kabinəsinə baxmışdır.

Müəllim Səadət Hüseynli kollektiv adından minnətdarlıq edərək demişdir: "Ali Məclis Sədrinin qayğısı ilə liseydə STEAM kabinəsi yaradılmış və müxtəlif avadanlıqlarla təchiz olunmuşdur. Kursantlar bu avadanlıqlarla tanış olmaqla, 3D modelləşdirmə, mikrobit və arduino ilə işləmə proqramlarına yiyələnmişlər. Muxtar respublikanın təhsil müəssisələrində, o cümlədən liseyimizdə yeni texnologiyaların tətbiqi yüksəkixtisaslı kadrların hazırlanmasına şərait yaradır. Əmin edirik ki, yaradılan şəraitdən səmərəli istifadə edəcəyik".

Kursantlar hazırladıqları minaaxtaran qurğu, ağıllı hərbi baza, xətt izləyən və kəşfiyyat robotları, qaz sensoru, elektron tank, su səviyyəsini ölçən qurğuların modellərini Ali Məclisin Sədrinə təqdim etmişlər.

Ali Məclisin Sədri demişdir: STEAM kabinəsində artıq ilkin nümunələr hazırlanıb. Bu da imkan verəcək ki, gələcəkdə hərbi liseyi bitirən hər bir kursant yeni texnologiyalar barədə məlumatlı olsun və onları idarə etməyi bacarsın. Muxtar respublikada STEAM tədris metodu ilk olaraq pilot layihə kimi tətbiq olundu. Bunun yaxşı nəticəsi və şagirdlərin marağı nəzərə alınaraq sərəncam imzalandı və muxtar respublikanın bütün ümumtəhsil məktəblərində tətbiqinə başlanıldı. Sərəncama əsasən Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılacaqdır. Artıq ümumtəhsil məktəblərindən hərbi liseyə qəbul olunan kursantlar yeni texnologiyalar haqqında məlumatlı olacaqlar. Burada isə tam formalaşdıqdan sonra təhsillərini ali hərbi məktəblərdə davam etdirəcəklər.

Daha sonra müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir: Kollektivin uğurlu fəaliyyətinin nəticəsidir ki, məzunlar Azərbaycan Silahlı Qüvvələrinin sıralarında zabitlər kimi xidmət edirlər. Onların hər bir nailiyyəti müəllimlərin sevincidir. Heydər Əliyev adına Hərbi Liseyin kursantları həmişə nailiyyətləri və qəhrəmanlıqları ilə seçilib. Bütün bunlar böyük zəhmət hesabına əldə olunub. Kursantlar həm müəllimləri, həm də dövlətimiz üçün qürur mənbəyidir.

Ali Məclisin Sədri valideynlərlə də görüşərək vətənpərvər övladlar yetişdirdikləri üçün onlara təşəkkürünü bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Duzdağda yeni şaxtanın istifadəyə verilməsi muxtar respublikanın iqtisadi potensialını gücləndirmişdir



*Qədim Naxçıvan torpağı yeraltı və yerüstü sərvətləri, əvəzolunmaz nemətləri ilə zəngindir. Bu diyarın havası, suyu, torpağında bitən bitkiləri, necə deyərlər, dərdlərə dərman, qəlblərə məlhəmdir. Bir sözlə, Tanrı bu diyara bir-birindən dəyərli, faydalı sərvətlər bəxş edib. Bu nemətlər arasında duzun xüsusi yeri var.*

Duz istehsalı Naxçıvanın tarixən özünəməxsus məşğulluq sahələrindən biridir. Daim Naxçıvan duzuna böyük tələbat olmuş, duzumuz dünyanın müxtəlif ölkələrinə göndərilmişdir. Əvvəllər Duzdağda duz açıq üsulla çıxarılırdısa, XX əsrin əvvəllərindən duzun sənaye üsulu ilə hasilatına başlanılmışdır. 1990-cı illərin sonunadək duz sənaye üsulu ilə çıxarılıb emal edilsə də, şaxtada və sexlərdə mövcud olan texnoloji avadanlıqlar müasir tələblərə cavab vermirdi. Nəticədə, duz çıxarılarkən səmərəlilik aşağı olur, normadan artıq itkilərə yol verilir, yüksəkkeyfiyyətli xörək duzu istehsal etmək mümkün olmurdu.

Son illər isə muxtar respublika rəhbərinin bu sahəyə xüsusi diqqəti artıq nəticəsini vermişdir. "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması, müəssisənin yeni texnoloji avadanlıqlarla təmin edilməsi muxtar respublikada duz istehsalının yeni mərhələyə qədəm qoymasına imkan vermişdir. İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir. Hazırda "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətində il ərzində 6-8 min ton duz istehsal olunur. Əgər 2010-cu ilədək müəssisədə cəmi 8 çeşiddə məhsul istehsal edilirdisə, həyata keçirilmiş tədbirlər nəticəsində məhsul çeşidinin sayı 18-ə çatdırılmışdır.

Ötən dövr ərzində "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin 1 nömrəli şaxtasında aparılan araşdırma zamanı yeraltı avadanlıqların



uzun müddət istismar olunduğu, təmir-bərpa xərclərinin hər il artdığı, mağaradan istifadənin iqtisadi cəhətdən səmərəli olmadığı və şaxtanın istismar müddətinin təhlükəliliyi nəzərə alınaraq 1 nömrəli şaxtanın istismarı dayandırılmışdır. Şaxtanın istismarı dayandırıldıqdan sonra daşduz qazma işləri yerüstü istismar üsulu ilə həyata keçirilmişdir.

1 nömrəli şaxtanın istismar müddəti 2017-ci ildə başa çatdığı üçün həm də artan tələbat nəzərə alınaraq 2018-ci ildə Duzdağda kəşfiyyat quyuları qazılmış, 133 metr dərinlikdəki 1 saylı quyuda 11,6 metr qalınlığında, 101 metr dərinlikdəki 2 saylı quyuda 6,5 metr qalınlığında daşduz layı kəsilmişdir.

Muxtar respublika ərazisində yerləşən Duzdağda 15 milyon ton duz ehtiyatı olan yeni şaxtanın tikintisinə 2019-cu ilin sonundan başlanılmışdır. Şaxta içəridə eni 5,5 metr, hündürlüyü 4,7 metr olmaqla, tam standartlara uyğun texnoloji vasitələrlə inşa edilmişdir. Tunelin sonunda sağ və sol istiqamətlərdə 40 metr qazma işləri aparılmış, burada 2 metr eni, 73 metr hündürlüyündə havalandırma sistemi quraşdırılmışdır ki, bu da içəridə yarana biləcək tozun çölə sorulmasına imkan verəcək, həmçinin duzun nəm çəkməsinin qarşısını alacaq. Şaxtada tektonik hərəkətlər zamanı hər hansı xoşagəlməz halların qarşısını almaq üçün müxtəlifölçülü qəliblər də quraşdırılmışdır. Texniki təhlükəsizlik qaydalarına tam cavab verən yeni şaxtaya ağır texnikalar daxil olaraq istənilən qədər xammalı daşıya biləcək ki, bu həm vaxt itkisinin qarşısını alacaq, həm də mədən işçilərinin əməyini xeyli yüngülləşdirəcək.

Ərazidə tikintisi davam etdirilən yeni duz istehsalı müəssisəsindən şaxtayadək 3 kilometr uzunluğunda yol, 3,6 kilometr uzunluğunda elektrik xətti çəkilmiş, tunelin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə 500 kva gücündə transformator quraşdırılmışdır. Yeni şaxtadan götürülmüş daşduzun analizi nəticəsində natrium xloridin miqdarının 97 faiz təşkil etdiyi müəyyən edilmişdir.

15 milyon ton ehtiyatı olan yeni duz şaxtasının açılması müəssisənin fəaliyyətinin genişlənməsinə, yeni iş yerlərinin açılmasına, Naxçıvan duzunun daha keyfiyyətli formada istehsal edilməsinə və məhsullarımızın ixrac potensialının artırılmasına imkan verəcəkdir.

Bəli, bu gün Duzdağda Naxçıvanın uğurlu iqtisadi kursunda önəmli yer tutan sənaye müəssisələrindən biri fəaliyyət göstərir. Burada dünyada tayı-bərabəri olmayan duz çıxarılır. Bu müəssisə ən müasir qurğularla təchiz edilib ki, minillərin Duzdağından çıxarılan duz təmiz şəkildə insanlara çatdırılsın. Naxçıvan duzu minillərboyu mövcud olan şöhrətini bu gün də qoruyub saxlayır, bu qiymətli məhsul insanların qida mədəniyyətində əvəzsiz yer tutur.

**Çinarə BALAYEVA**
***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı***

## Suvarma mövsümü mütəşəkkil keçir

Muxtar respublikada suvarma mövsümünün mütəşəkkil keçirilməsi diqqət mərkəzindədir. Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün may ayında bir sıra tədbirlər görülmüş, 15 kilometr beton və torpaq kanal, 20,4 kilometr ara arxlar, 8 kilometr kollektor lildən təmizlənmiş, 5 kilometr yeni suvarma boru xətti, 1,1 kilometr yeni qapalı drenaj xətti çəkilmişdir.

Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün Arpaçay və Sirab selovlarında, Arpaçay sol sahil kanalı ərazisində, ümumilikdə, 900 metr selə qarşı istiqamətləndirici bənd salınmışdır.

Muxtar respublikanın mövcud su anbarlarında cari ilin əvvəlindən 229,4 milyon kubmetr su ehtiyatı toplanmış, su istifadəçilərinə may ayı ərzində 64,6 milyon kubmetr su verilmiş, bunun müqabilində 54 min hektar torpaq sahəsi suvarılmışdır.

Mütərəqqi suvarma şəbəkələrinin qurulması və yeni su xətlərinin çəkilməsi sahəsində görülən işlər də diqqətdə saxlanılmış, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 339 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 3,7 kilometr suvarma xətti çəkilmiş, 50 hovuz və hidrant quraşdırılmışdır. Muxtar respublikada su təminatının həyata keçirilməsində subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə edilir. Qeyd olunan dövrdə 84 subartezian quyusunda və 5 kəhrizdə təmir-bərpa işləri aparılmış, 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmışdır.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Ordubad rayonunda işlər başa çatdırılmışdır. Layihə üzrə, ümumilikdə, içməli su mənbəyi kimi 5 subartezian quyusu, gün ərzində 11 min kubmetr sutəmizləmə gücünə malik olan qurğu, ümumi tutumu 1400 kubmetr olan 2 xam su anbarı, ümumi tutumu 20 min kubmetr olan 6 təmiz su anbarı tikilmiş, 7 suqaldırıcı nasos, 8,8 kilometr təzyiqli boru xətti, 131 kilometr su şəbəkəsi, 123 kilometr kanalizasiya şəbəkəsi quraşdırılmış, 2985 su və kanalizasiya ev birləşməsi aparılmışdır. Həmçinin Kəngərli rayonunun Qarabağlar və Xok kəndlərində 7,5 kilometr, Sədərək rayonunun Dəmirçi kəndində 16,6 kilometr içməli su xətti çəkilmiş, su ev birləşmələri işləri yerinə yetirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

*18 iyun İnsan Hüquqları Günüdür*

# Muxtar respublikada insan hüquq və azadlıqları etibarlı şəkildə qorunur

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən hər il 18 iyun ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur.***

Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz tərəfindən həyata keçirilmiş hüquq islahatları ölkəmizdə demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır. Ölkəyə rəhbərlik etdiyi dövrlərdə insan hüquq və azadlıqlarının qorunmasına diqqət yetirən ulu öndər demişdir: ***"Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və ya anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur".***

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi-referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə əsas insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuş, hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlanmasına təkan vermiş, çox mühüm normativ-hüquqi aktlar və bir sıra Dövlət proqramları qəbul edilmişdir. Ulu öndər tərəfindən imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmiş, qanunvericilik və institusional islahatlara təkan vermişdir.

1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulan Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Bu gün Azərbaycanın müasir inkişafı dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilir. Ölkə başçısı tərəfindən 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 2011-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da insan hüquq və azadlıqları ilə bağlı həyata keçirilən mühüm islahatlar ardıcıl şəkildə davam etdirilir. Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmişdir. Belə ki, fərmanın qəbul edilməsindən ötən dövr ərzində hüquq institutlarının təkmilləşdirilməsi, insan hüquqlarının müdafiə mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması, əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada insan hüquqlarının müdafiəsi ilə bağlı hüquq institutlarının inkişafı tarixində ən mühüm tədbirlərdən biri də Müvəkkil təsisatının yaradılması olmuşdur.

Muxtar respublikada insan hüquq və azadlıqlarını daim diqqət mərkəzində saxlayan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2006-cı ildə insan hüquqlarının müdafiəsi üzrə orqanlar sistemində yeni və müstəqil məhkəmədənkənar alternativ hüquq müdafiə vasitəsi olan Müvəkkil təsisatı yaradılmışdır. Ötən dövrdə təsisatın fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmış, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa bir sıra dəyişikliklər edilmişdir. Həyata keçirilən bu tədbirlər muxtar respublikada insan hüquqlarının müdafiəsi istiqamətində mövcud qanunvericiliyin daha da təkmilləşdirilməsini, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsini təmin etmişdir.

Ötən dövr ərzində səmərəli hüquq müdafiə mexanizmi kimi formalaşan Müvəkkil təsisatı fəaliyyətini preventiv mexanizm funksiyalarının icrası, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması, beynəlxalq təcrübə mübadiləsi, əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə, bu sahədə dövlət və yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində qurmuşdur.

Bu gün muxtar respublikada ölkə Konstitusiyasında təsbit edilən fundamental hüquq və azadlıqlar, həmçinin əhalinin müxtəlif sosial qruplarının hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir, əhalinin müxtəlif sosial qruplarının hüquq bərabərliyinin davamlı təmin edilməsi daim diqqət mərkəzində saxlanılır.

Muxtar respublikamızın davamlı sosial-iqtisadi inkişafı əhalinin müxtəlif sosial qruplarının – qadınların, gənclərin, ahıl vətəndaşların, müharibə veteranlarının, şəhid ailələrinin və məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsini gücləndirmiş, onların hüquq və azadlıqlarının səmərəli təmini və etibarlı müdafiəsi məqsədilə mühüm normativ-hüquqi aktlar, Dövlət proqramları qəbul edilmişdir.

Muxtar respublikada əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlər yeni iş yerlərinin açılması ilə yanaşı, sosial cəhətdən həssas əhali qruplarının məşğulluqda iştirak payını da yüksəltmiş, onlar özünüməşğulluq proqramlarına cəlb olunmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 28 yanvar 2021-ci il tarixdə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Qəbul edilmiş Dövlət proqramının məqsədi əhalinin məşğulluğuna yönəldilən tədbirlərin davamlılığına nail olunması, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin edilməsi, əmək bazarında real vəziyyətin təhlil edilməsi və tələbata uyğun kadr hazırlığının aparılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsidir. Bu proqramın icrası muxtar respublikanın yeni sosial-iqtisadi inkişafına uyğun olaraq əhalinin məşğulluğunun artırılmasını, onların rifahının daha da yüksəldilməsini, əmək bazaranın tələbləri əsasında kadr hazırlığının aparılmasını və özünüməşğulluq imkanlarını genişləndirəcəkdir.

Ötən dövrdə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası, məşğulluq imkanlarının və peşə hazırlığının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, onlara göstərilən sosial xidmət, inklüziv təhsilin keyfiyyətinin daha da artırılması istiqamətində qəbul edilmiş Dövlət proqramlarının icrası təmin edilmiş, muxtar respublikada Əlillərin Bərpa Mərkəzi, Uşaq Bərpa Mərkəzi və məhdud fiziki imkanlı şəxslər üçün Naxçıvan Regional İnformasiya Mərkəzi fəaliyyətə başlamış, əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verməyən uşaqların təhsil hüququnun həyata keçirilməsi üçün onların inklüziv və məsafədən təhsilinə geniş imkanlar yaradılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 15 mart 2021-ci il tarixdə bu sahədə yeni – "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Yeni Dövlət proqramının məqsədi sağlamlıq imkanları məhdud uşaqların təhsilə və cəmiyyətə inteqrasiyası, inklüziv təhsil imkanlarından geniş istifadə olunması, distant təhsil proqramlarının təkmilləşdirilməsi və onların sosial reabilitasiyasının təmin olunmasıdır. Bu proqramın icrası sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbində davamlılığın təmin edilməsini, bu sahədə təlim-təhsil proseslərinin daha da təkmilləşdirilməsini və onların cəmiyyətə inteqrasiyasını daha da sürətləndirəcəkdir.

Ahıl vətəndaşların sosial vəziyyətlərinin yaxşılaşdırılması muxtar respublikada daim diqqət mərkəzində saxlanılan sahələrdəndir. Bu gün ahıl vətəndaşlara göstərilən xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlir, onların maddi və mənəvi tələbatlarının ödənilməsi, müxtəlif növ xidmətlərin göstərilməsi, sağlamlıqlarının qorunması və tibbi reabilitasiyası həyata keçirilir, muxtar respublikada ahıl vətəndaşların sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində davamlı inkişafı təmin edilir.

Muxtar respublikada müharibə veteranlarının və şəhid ailələrinin sosial müdafiəsinin və rifah halının yaxşılaşdırılması sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərə hərtərəfli dövlət qayğısı göstərilir, bu sahədə xidmətlərin həcmi və keyfiyyəti ildən-ilə artırılır, onların müayinə və müalicəsi üçün muxtar respublikada fəaliyyət göstərən səhiyyə müəssisələri müasir avadanlıqlarla təchiz olunur, müvafiq kateqoriyadan olan vətəndaşlar müxtəlif sosial proqramlara, aktiv məşğulluq tədbirlərinə cəlb edilir, onlar mənzil və avtomobillərlə təmin olunurlar. Həyata keçirilən bu tədbirlər Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanların fəaliyyətinə dövlət qayğısının bariz ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasəti qadınların hüquqlarının etibarlı müdafiəsini təmin etməklə sosial-iqtisadi, elmi-intellektual potensialının daha da artırılmasına, onların ictimai-siyasi, sosial-mədəni həyata daha fəal cəlb edilməsinə geniş imkanlar yaradır. Muxtar respublikada qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olması, kredit resurslarından, bazar və müxtəlif imkanlardan istifadəsi, qadınların iqtisadi təşəbbüskarlığının artması, mikro, kiçik və orta biznesdə geniş təmsil olunması, məşğulluğun təmin edilməsi və onların peşə kurslarına cəlb olunması üçün geniş dövlət dəstəyi göstərilir. Həyata keçirilən bütün tədbirlər qadın sahibkarlığın inkişafını, qadınların öz potensiallarının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artırır. Muxtar respublikada dövlət qadın siyasətinin uğurla həyata keçirilməsinin təməlində isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğı dayanır.

Muxtar respublikada gənclərin yüksək səviyyədə təhsil almasına, intellektual səviyyəsinin yüksəldilməsinə, dünyagörüşünün formalaşmasına və asudə vaxtlarının səmərəli keçirilməsinə, gənc nəslin sağlamlığının qorunmasına və gənclərin məşğulluq məsələlərinə diqqət günügündən artırılır, elektron kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, yeni orta məktəb binaları, idman mərkəzləri və digər obyektlər tikilir və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilir. Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yeni yaşayış kompleksləri tikilərək istifadəyə verilir, gənclərin güzəştli şərtlərlə mənzil sahibi olmaları üçün tədbirlər görülür.

Muxtar respublikada azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, əmək hüquqlarının təmin edilməsi, cəmiyyətə adaptasiyası və müxtəlif peşə vərdişlərinə yiyələnməsi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin nəzdindəki yaradıcılıq və istehsalat sahələrində məhkumlar müxtəlif peşələr üzrə kurslara cəlb edilir, onların əl işləri müxtəlif sərgilərdə nümayiş etdirilir, azadlığa buraxıldıqdan sonra sosial adaptasiyası və özünüməşğulluğun təmin edilməsinə geniş imkanlar yaradılır. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan humanist cəza siyasəti muxtar respublikamızda uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların barəsində humanist cəza siyasətinə əsaslanan tədbirlərin uğurla davam etdirilməsi onların islah edilmə prosesinin sürətlənməsini, normal sosial faydalı həyata adaptasiya olunmasını və bu sosial qrupdan olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsini təmin edir.

Ötən dövr ərzində muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi uğurla davam etdirilmişdir. Belə ki, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı bütün zəruri tədbirlərin reallaşdırılması və daxili əmək bazarının qanunsuz miqrantlardan qorunması təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrantların Saxlanılması Mərkəzində saxlanılan miqrantların hüquqlarının qorunması muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin beynəlxalq standartlara uyğun həyata keçirilməsinin bariz nümunəsidir.

Muxtar respublikada informasiya agentliklərinin, dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılması, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi, redaksiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi və səmərəli fəaliyyətinə zəruri şəraitin yaradılması, jurnalist peşəkarlığının yüksəldilməsi, azad mətbuatın fəaliyyət göstərməsi, sürətli internetə çıxış imkanlarının yaradılması söz və fikir azadlığının təmin olunması, insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Həyata keçirilmiş bu tədbirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mətbuata və kütləvi informasiya vasitələrinə göstərdiyi diqqət və qayğısının parlaq təzahürü olmaqla yanaşı, həm də ictimai tribuna kimi insan hüquqlarının təminatı sahəsində görülən işlərin davamıdır.

Bu gün muxtar respublikanın yüksələn iqtisadi inkişafı, hər bir sosial qrupa ünvanlanmış sosial-iqtisadi layihələrin ardıcıl həyata keçirilməsi əhalinin rifah halının getdikcə yaxşılaşmasına, nəticə etibarilə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, etibarlı müdafiəsinə və davamlı inkişafına öz töhfəsini verməkdədir. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı tərəfindən insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Elmi-praktik konfrans keçirilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi ilə "Naxçıvan" Universitetinin birgə təsdiq olunmuş Tədbirlər planına uyğun olaraq təşkil edilən "Ailə cəmiyyətin özəyidir" proqramı çərçivəsində növbəti maarifləndirici konfrans keçirilib. "Ailə üzvlərinin aliment öhdəlikləri" mövzusunda təşkil edilən tədbirdə universitetin müəllim və tələbə kollektivi iştirak edib.

Konfransı giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq tədbirin əhəmiyyəti barədə məlumat verib.

Sonra nazirliyin əməkdaşları Reyhan Sadiqovanın, Həbibə Əliyevanın, Rəşad Allahverdiyevin, universitetin müəllimləri Emilya Süleymanovanın və Təranə Əliyevanın çıxışları dinlənilib.

Konfransda boşanmış ailələrdə böyüyən uşaqların maddi mənəvi ehtiyaclarının ödənilməsi, həmin qrupdan olan uşaqların psixoloji durumunun yaxşılaşdırılmasına istiqamətlənən məsələlərə diqqət çəkilib, bu sahədə vacib nüanslara toxunulub.

Sonda mövzu ətrafında diskusiyalar aparılıb və iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Nizami Gəncəvi yaradıcılığı müzakirə olunub



*Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində keçirilən növbəti yığıncaq "Oxunması zəruri olan kitablar"dan "Sirlər xəzinəsi" poeması və "Nizaminin hikmət və nəsihətləri" kitabının müzakirəsinə həsr olunub.*

Tədbiri giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, ölkə başçısı tərəfindən 2021-ci il 5 yanvar tarixdə imzaladığı, 2021-ci ilin Azərbaycanda "Nizami ili" elan edilməsi ilə bağlı Sərəncam Nizami Gəncəvi irsinin yenidən və daha dərindən tədqiqinə şərait yaradıb. Bölmə rəhbəri müxtəlif tədqiqatçıların Nizami yaradıcılığı ilə bağlı əsərlərindən sitatlar gətirərək görkəmli Azərbaycan şairinin dünya ədəbiyyatındakı rolundan danışıb. Qeyd olunub ki, Nizami Gəncəvi yüksək istedada malik, zəngin ədəbi və fəlsəfi məktəb yaradan şairdir.

Akademik dahi şairimiz Nizami Gəncəvinin "Sirlər xəzinəsi" və "Nizaminin hikmət və nəsihətləri" kitabının "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil edilməsinin əhəmiyyətini vurğulayıb.

Müzakirədə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Müdriklik kitabı: "Sirlər xəzinəsi", "Nizaminin hikmət və nəsihətləri" mövzusunda məruzə edib. Məruzədə böyük Azərbaycan şairi Nizami Gəncəvinin elm, bilik, humanist ideallar, bəşəri dəyərlər əxz edən yaradıcılığı ilə bütün bəşər və dünya xalqlarının ehtiramla mütaliə etdiyi korifey sənətkar olduğu vurğulanıb.

Tədqiqatçı bu görkəmli sənətkarın həyat və yaradıcılığının mükəmməl şəkildə öyrənilməsinə yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlandığını, bu ənənənin hazırda da ölkəmizdə uğurla davam etdirildiyini söyləyib.

Bildirilib ki, şairin "Sirlər xəzinəsi" poeması gənc nəsillər üçün əsl humanist dəyərlər, vətənpərvərlik, əməksevərlik, xalqa bağlılıq təbliğ edən zəngin mənəviyyat kitabıdır. Nizami yaradıcılığında kamil insan problemi əsas mövzudur. Xoşbəxtliyə gedən yolun haqdan, düzlükdən, adil cəmiyyətdən keçdiyini təlqin edən dahi şair halal zəhməti, elm və biliyi hər şeydən üstün tutur.

Məruzəsində milli-mənəvi dəyərlərin təbliği məsələlərinə toxunan tədqiqatçı dünya mütəfəkkirlərinin fəlsəfi fikirləri ilə Nizaminin fəlsəfəsi arasında təhlillər apararaq vəhdət təşkil edən məqamları təhlil edib. Onun Naxçıvanla əlaqələri də məruzədə öz əksini tapıb.

İnstitut əməkdaşlarından filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayev və dosent Aygün Orucova müzakirə olunan əsərlərlə bağlı çıxış ediblər. Çıxışlarda şairin müdrik kəlamlarının ehtiva etdiyi dərin fəlsəfi fikirlər, rəqəm və simvollarda gizlənmiş bir sıra məsələlərə aydınlıq gətirilib. Nizami fəlsəfəsində aşılanan humanizm çıxışların əsas xəttini təşkil edib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Maarifləndirici tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Filialında "Mülki müdafiə, fövqəladə hallardan qorunma və yanğın təhlükəsizliyinin təmin olunması günümüzün zəruri tələbidir" mövzusunda maarifləndirici tədbir keçirilib.*

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Filialının direktoru Rövşən Abbasov belə maarifləndirici tədbirlərin vacibliyini vurğulayıb və tədbirin əhəmiyyəti barədə iştirakçılara məlumat verib.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Əbülfəz Qafarov kollektivə mülki müdafiə, fövqəladə hallardan qorunma, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, günvurma zamanı davranış qaydaları, suda boğulma hallarında ilk yardım qaydaları, qaz və elektrik təsərrüfatı, yanğın təhlükəsizliyinin təmin edilməsi ilə bağlı müəyyən edilmiş qaydalar haqqında məlumat verib.

Sonda suallar cavablandırılıb, mövzulara aid slayd və videolar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

***Rəssamlıq-təsviri incəsənətin ən qədim növlərindən biridir. Rəssamlıq-müəllifin xəyalı və ya texniki bacarığını ifadə edən, düşüncə və emosional gücünü ortaya çıxaran fəaliyyət sahəsidir. Rəssamlıq-yeniliyi görmə üsulundan, fərqli ifadə tərzindən, çox vaxt isə, sadəcə, yaratmaq eşqindən formalaşan bir sənətdir. Ona görə də bu sənət izah edir, öyrədir, informasiya verir. Bu sənət həyəcanın, gücün və sevginin ifadə tərzi də, bütün dünyaya bir mesaj ola bilər – siyasətə, barışa, müharibəyə və ya gözəlliyə dair. Bəzən də, qaçış, idealizasiya və ya sadəcə, oyun vasitəsi ola bilər. Beləliklə, qələmi, boya fırçasını, pasteli əlinə aldığında onlar səni istədiyin yerə aparır. Bu zaman isə irəliləmək istədiyin yolu seçir, həyatı öyrənir və kəşf edirsən...***

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi – 50*

## Rəssamlıq həyatın özüdür



Bu gün muxtar respublikamızda mədəniyyətin bir çox sahələrində olduğu kimi, incəsənətin bir növü olan rəssamlıq sahəsində də nailiyyətlər, uğurlar əldə edilir. Diyarımızda peşəkar rəssam kimi yetişmək, bu sənətlə məşğul olmaq istəyən gənc istedadlar kifayət qədərdir və onların yaradıcı fəaliyyətinə də hər cür şərait yaradılıb. Heç şübhəsiz ki, Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə bu il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin qeyd edilməsi muxtar respublikamızda rəssamlığın inkişafı, gənc rəssamların istedadlarının üzə çıxarılması, onların tanınması və yeni yaradıcılıq axtarışlarının stimullaşdırılmasına böyük bir qayğıdır. Həmsöhbət olduğumuz Fəxriyyə Qədimbəyli bu sənət sahəsində fəaliyyət göstərən gənc istedadlarımızdan biridir. Fəxriyyə 1995-ci ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisasını bitirib. Uşaqlıqdan qələmlə kağız üzərində müxtəlif rəsmlər qaralayan müsahibim bu gün muxtar respublikamızda təşkil edilən rəsm sərgilərində, müsabiqələrdə iştirak edir, uğurlar qazanır. Ailəsinin ona həmişə motivasiya və dəstək verdiyini deyir. Beləliklə, o, daha da həvəslənir və bu sənətə bağlanır. Fəxriyyə 2008-2010-cu illərdə muxtar respublikamızda fəaliyyət göstərən Estetik Tərbiyə Mərkəzində "Rəsm studiyası"nın üzvü, 2010-2012-ci illərdə Texniki Yaradıcılıq Mərkəzində "Texniki rəsmxət" dərnəyinin üzvü kimi fəaliyyətini genişləndirir, daha çox öyrənir, öz üzərində çalışır.

Ona ilk sualım belə oldu: – Sən necə rəsm çəkirsən? Müsahibimin bu suala cavabı sadə idi: – Görürəm, hiss edirəm və fırça ilə həyat verirəm. Fəxriyyə deyir ki, rəssamlıqda söz deyə bilmirsən, gördüklərini və hiss etdiklərini rəngləyirsən. Rəsmi gözəl və maraqlı edən də onu izlədiyində keçirdiyi duyğular və hisslərdir. Fəxriyyə müxtəlif janrlarda – mənzərə, natürmort, portret, süjetli əsərlər, həmçinin yandırma, müxtəlif tikmə üsulları ilə də gözəl əsərlər yaradır. Təsviri incəsənət əsərlərini yaradarkən akvarel, quaş, palitra, fırçadan istifadə edir. Müsahibim deyir ki, təsviri incəsənətin bütün növlərində – dekorativ-tətbiqi sənət, boyakarlıq, qrafika, heykəltəraşlıq üzrə işləyir. – Yaradıcılığımda müxtəlif mövzular və fərqli texnikalarda işlənmiş natürmortlara, kompozisiyalara üstünlük verirəm. Çəkdiyim rəsmlərdə özünəməxsusluğu ortaya qoymağa çalışıram...

Fəxriyyənin rəsmlərinə göz gəzdirirəm. Bu əsərlər rənglərin yüksək zənginliyi və kolorit vahidliyi ilə seçilir. Natürmortları kompozisiya quruluşuna, özünəməxsus ifadəsinə görə fərqlənir. Kompozisiyalarında qəhrəmanlıq, tarixi hadisələr, Azərbaycançılıq, sülh və türkçülük, ümumiyyətlə, vətənpərvərlik mövzuları daha çox yer alır. Rəngkarlıq sahəsində yağlı boya ilə çəkdiyi "Velosipedli qız", "Etüdə hazırlaşan rəssam qız", "Xocalı", "Almalarla natürmort", "Narlar" və sair diqqəti cəlb edir. Rəssamlığın çətin janrlarından sayılan qrafika sahəsində qara qələm və sulu boya ilə çəkdiyi "Çay dəsgahı", "Məişət əşyaları" rəsmləri və digər əsərləri göstərir ki, onun qrafik sənət dili sadədir, orijinaldır və müəllifin həyat müşahidələrindən irəli gələrək çəkilib. Dekorativ-tətbiqi sənət sahəsində toxuma və taxta üzərində həkk edilmiş təsvirləri – "Buta", "Quş yuvası" əsərləri maraqlı olmaqla bərabər, ipək saplarla işlənmiş "Azərbaycan-Türkiyə" əsəri bir millət, iki dövlətin birliyini, qardaşlığını ifadə edir. Portret janrında yaratmış olduğu sənət müəllimi Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyevanın portreti, eləcə də xüsusi texnika – ağac üzərində yandırma üsulu ilə işlənmiş əsərləri gənc rəssamın yaradıcılıq uğurları kimi qiymətləndirilə bilər.

Öyrənirik ki, Fəxriyyə Qədimbəylinin Naxçıvan Dövlət Universitetində təhsil aldığı illərdə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə və Yeni il bayramına həsr edilmiş fərdi sərgisi də açılıb. O bildirir ki, fərdi sərginin təşkilində, eləcə də bir rəssam kimi formalaşmasında müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyevanın rolu çox böyükdür. – Fərdi sərgimin açılması həm də muxtar respublikamızda mənim kimi müxtəlif sənət sahələri ilə məşğul olan gənclərə göstərilən diqqət və qayğının nümunəsi, eləcə də bizim cəmiyyətə təqdim olunmağımızda, özümüzü inkişaf etdirməkdə və istedadımızın ön plana çıxarılmasında mühüm rol oynayır. Fəxriyyə məktəbdə, universitetdə təhsil aldığı illərdə də muxtar respublikamızda keçirilən rəsm müsabiqələrində, yarışmalarda iştirak edərək uğurlar əldə edir. Onun uğurlarına misal olaraq 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən rəsm müsabiqəsində, Naxçıvan Dövlət Universitetinin təşkil etdiyi Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə həsr olunmuş karikatura sərgisində, eləcə də "Söz xəzinəmiz – İmadəddin Nəsimi, böyük ədib – Mirzə Cəlil" adlı yaradıcılıq müsabiqəsində, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin muxtariyyətimizin 95 illiyi münasibətilə keçirdiyi "Naxçıvan Muxtar Respublikası – 95", 20 Yanvar faciəsinə həsr olunmuş rəsm müsabiqələrində müvəffəqiyyət qazanıb.

Fəxriyyə deyir ki, hədəfimiz həyatımızı idarə edir. Səylə çalışmaqla istənilən hədəfə nail olmaq mümkündür. Hər zaman ətrafdan ilham alıram və həyata fərqli baxıram. Arzularımı reallaşdırmaq üçün bundan sonra da əzmkarlıqla çalışacağam.

Biz də gənc rəssama bundan sonrakı fəaliyyətində, məqsədinə gedən yolda uğurlar arzu edirik.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Profilaktik tibbi müayinələr aparılıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin 11 nəfərdən ibarət həkim briqadası dünən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumları profilaktik müayinələrdən keçirib.

Müəssisənin tibbi sanitar hissəsinin tibbi heyətinin də fəal iştirakı ilə həkim briqadası tərəfindən gün ərzində ümumi, həmçinin COVID-19, vərəm, hepatit B, C, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün 73 nəfərdən test və qan analizləri götürülüb. Sonra yüksəkixtisaslı həkimlər tərəfindən tibbi müayinələr aparılıb.

Səhiyyə Nazirliyi, Naxçıvan Muxtar Respublika Xəstəxanası, Ağciyər Xəstəlikləri Dispanseri, Doğum Mərkəzi və Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsinin həkim, tibb bacısı və laborantları ilə yanaşı, briqadada "Şərur Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsin yüksəkixtisaslı oftalmoloqunun da iştirakı təmin olunub.

Həkim briqadasının fəaliyyəti ərzində laborator təhlillər, elektrokardioqrafiya, ultrasəs müayinələri aparılıb, müvafiq təyinatlar verilib. Müayinələrin nəticələri sağlamlıq kartlarında qeyd olunub.

Profilaktik tibbi müayinələrdə 73 nəfər Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən ftiziatr müayinələrindən də keçirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Hansı obyektlərin tikintisinə məlumatlandırma icraatı tələb olunur?*

**Cavab:** Şəhərsalma və Tikinti qanunvericiliyinə əsasən mülkiyyətində, icarəsində və ya istifadəsində olan torpaq sahəsində hündürlüyü üzrə yerüstü mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən (binanın hündürlüyü "0" səviyyəsindən, yəni birinci yerüstü mərtəbənin döşəməsinin üst hissəsindən sonuncu mərtəbənin örtüyünün alt hissəsinədək (çardaqaltı döşəmənin alt hissəsi) və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan fərdi yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir və onların tikintisi üçün tikinti layihəsinin yalnız zirzəmilərin, mərtəbələrin, dam örtüklərinin planlarından, kəsiklərdən və fasadlardan ibarət memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinin hazırlanması tələb olunur.

Barəsində məlumatlandırma icraatının tətbiq edildiyi tikinti obyektlərinin tikintisinə icazənin alınması tələb olunmur. Sifarişçi tikintiyə başlamazdan əvvəl tikinti niyyəti barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən 10 gün müddətində layihəyə dair irad sifarişçiyə təqdim edilmədikdə, sifarişçi tikinti işlərinə başlaya bilər.

Barəsində məlumatlandırma icraatı tətbiq edilən tikinti obyektlərinin tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinə uyğun tikilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı (Fövqəladə Hallar Nazirliyi) həyata keçirir.

Müvafiq icra hakimiyyəti orqanı (yerli icra hakimiyyəti orqanı) qanunvericiliklə müəyyən edilən müddətlər (10 gün) bitdiyi gündən 3 iş günü ərzində tikinti layihəsi barədə müvafiq məlumatı Tikintilərin Dövlət reyestrinə təqdim edir. Həmin məlumatlar 3 iş günü ərzində Tikintilərin Dövlət reyestrinin internet səhifəsində yerləşdirilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

### *İtmişdir*

Əhmədov Rövşən İsmayıl oğlunun adına olan sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Rəcəbov Xaliq Səfər oğlunun adına olan Atatürk küçəsi, bina 14, mənzil 15-in MH-005987 seriya nömrəli çıxarışı və 4728 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 486